# {Sonra da o gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız}

Zubeyr bin Avvamdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: {Sonra da o gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız}. [Təkəsur surəsi: 8] ayəsi nazil olduqda Zubeyr (Allah ondan razı olsun): Ey Allahın Rəsulu! Hansı nemətlərdən hesaba çəkiləcəyik, xurma və sudanmı?! deyə soruşdu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): «Şübhəsiz ki bunlardan hesaba çəkiləcəksiniz» deyə buyurdu.

[Həsən] [Ət-Tirmizi və İbnu Məcə rəvayət etdi]

Bu ayə nazil olduqda: {Sonra da o gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız}. Yəni: Allahın sizə bəxş etdiyi nemətlərə şükür edib, etmədiyinizdən dolayı hesaba çəkiləcəksiniz. Zubeyr bin Avvam (Allah ondan razı olsun) bunu eşidincə: Ey Allahın Rəsulu! Hansı nemətlərdən hesaba çəkiləcəyik, xurma və sudanmı?! deyə soruşdu. Bu iki nemət, sorğu-sualı gərəkdirməyən iki nemətdir dedi. Bunun eşidən Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: Siz mütləq sizə bəxş edilən nemətlər barədə hesaba çəkiləcəksiniz. Çünki bu iki nemət, Uca Allah nemətlərindən, iki əzəmətli nemətdir.

https://sunnah.global/hadeeth/az/show/65075